Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;

# Dünya Azərbaycan gənclərinin səsini bu dəfə İstanbuldan eşitdi...

**Azərbaycanın diaspor quruculuğunda gənclərin rolu müasir dövrdə getdikcə artan əhəmiyyətə malikdir və bu proses ölkənin beynəlxalq imicinin formalaşmasında əsas amillərdən biri kimi çıxış edir. Qloballaşma şəraitində diaspor yalnız milli kimliyin qorunması vasitəsi deyil, eyni zamanda siyasi, mədəni və informasiya müstəvisində dövlət maraqlarının müdafiəsi üçün mühüm platformadır.**



Bu platformanın ən dinamik və fəal hissəsini isə gənclər təşkil edir. Onların enerjisi, çevik düşüncə tərzi və müasir kommunikasiya vasitələrindən istifadə bacarığı diaspor fəaliyyətinə yeni məzmun və forma qazandırır.

**Gənc nəsil diaspor fəaliyyətini ənənəvi tədbirlər çərçivəsindən kənara çıxarır**

Gənclər xarici ölkələrdə təhsil alaraq və ya yaşayaraq yaşadıqları cəmiyyətlərin sosial-siyasi mühitinə daha tez inteqrasiya olunur. Bu inteqrasiya onlara həm yerli dəyərləri anlamaq, həm də Azərbaycan həqiqətlərini daha düzgün və təsirli şəkildə təqdim etmək imkanı yaradır. Qeyd edilənlər fonunda artıq bəllidir ki, 2022-ci ildə Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında prezident İlham Əliyevin xaricdə yaşayan azərbaycanlılara, xüsusilə gənclərə tarixi Vətənlə əlaqələrini daim qoruyub saxlamaq, mütəmadi olaraq Azərbaycana səfər etmək, Ana dilini unutmamaq, Azərbaycan tarixini və mədəniyyətini dərindən öyrənmək barədə verdiyi tövsiyələr gənclərinmizin xaricdə fəaliyyətində mühüm yer tutur. Bu, həm də Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində əsas istiqamət kimi müəyyən edilib.

Gənclərə yönəlik layihələr çərçivəsində ölkəmizin müxtəlif şəhərlərində, xüsusilə işğaldan azad olunan ərazilərdə təşkil edilən Diaspor Gənclərinin Yay Düşərgələri hər il dünyanın 60-dan çox ölkəsindən yüzlərlə gənci bir araya gətirir. Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birlikdə təşkil etdiyi düşərgələr xaricdəki azərbaycanlı gənclərin və ölkəmizi sevən xalqların nümayəndələrinin Azərbaycan haqqında bilik və təcrübələrini artırır, onların intellektual və innovativ potensialının reallaşmasını, şəbəkələşmə imkanlarının genişlənməsini stimullaşdırır. Komitənin "Diaspor Gəncləri 1+1", "E-akademiya", "Azərbaycan Könüllüləri" "Diaspor Gənclərinin Qış Düşərgələri" və digər layihələri xaricdə yaşayan azərbaycanlı gənclərin bilik və bacarıqlarını artırmaqla yanaşı, onların ölkəmizə bağlılıq hissini gücləndirir, milli-mənəvi dəyərlərə sədaqətini möhkəmləndirir. Fevralın əvvəlində isə İstanbulda "Azərbaycan diaspor gəncləri: Birlik və İnkişaf" mövzusunda forum keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan-Türkiyə Dərnəkləri Federasiyasının əməkdaşlığı ilə təşkil olunan tədbirdə dünyanın 28 ölkəsindən gənclər iştirak edib. Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Valeh Hacıyev Gənclər Gününün Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına, onun gəncliyinə verdiyi dəyərin nümunəsi olduğunu bildirib: "Bir vaxtlar Ulu Öndər tərəfindən oxumasına təkan verilən gənclər bu gün ölkəmizin gələcəyi üçün xidmət edirlər. Azərbaycan gəncliyinin birlik və bərabərliyi Vətən müharibəsi dövründə dünyanın demək olar ki, bütün ölkələrində özünü ən gözəl şəkildə büruzə verdi". İstanbulun Bağçılar rayonu üzrə kaymakamı Abdullah Uçqun da türk gənclərinin milli-mənəvi dəyərlərindən uzaqlaşmamasının, əksinə yaşadığı ölkələrdə Vətənini layiqincə təmsil etməsi vacibliyini vurğulayıb. "Bir millət, iki dövlət" kəlamının da burada böyük əhəmiyyəti olduğunu qeyd edən Uçqun Türk Dövlətləri Təşkilatının yaradılması ilə bu qavramın bütün türk xalqları arasındakı birliyin rəmzinə çevrildiyini bildirib. Daha bir mühüm nüans odur ki, müasir informasiya dövründə diaspor fəaliyyətinin əsas istiqamətlərindən biri media və rəqəmsal platformalar üzərindən aparılan işdir. Sosial şəbəkələr, onlayn media və müxtəlif rəqəmsal layihələr vasitəsilə Azərbaycanla bağlı məlumatların yayılması gənclərin fəallığı sayəsində daha geniş auditoriyaya çatır. Gənclər dezinformasiyaya qarşı çevik reaksiya vermək, saxta məlumatları faktlarla təkzib etmək və ölkənin mövqeyini müasir dillə izah etmək baxımından xüsusi üstünlüklərə malikdirlər. Bu, diaspor fəaliyyətini ənənəvi tədbirlər çərçivəsindən çıxararaq daha təsirli və davamlı edir.

**Gənclərə investisiya diasporun güclənməsinə və Azərbaycanın dünyadakı səsinin daha gur eşidilməsinə səbəb olur**

Diaspor quruculuğunda gənclərin rolu mədəniyyətin və milli dəyərlərin qorunması ilə də sıx bağlıdır. Xaricdə keçirilən mədəni tədbirlər, festival və təqdimatlar vasitəsilə Azərbaycan musiqisi, ədəbiyyatı, tarixi və adət-ənənələri tanıdılır. Bu tədbirlərin təşkili və icrasında gənclərin fəallığı milli kimliyin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Eyni zamanda, bu fəaliyyətlər gənclərin öz milli mənsubiyyətlərinə bağlılığını gücləndirir və diaspor daxilində həmrəyliyi artırır.

Təşkilatlanma məsələsində də gənclər diaspor quruculuğuna yeni yanaşmalar gətirir. Onlar qeyri-hökumət təşkilatlarında, tələbə birliklərində və gənclər assosiasiyalarında birləşərək daha çevik və məqsədyönlü fəaliyyət göstərə bilirlər. Bu cür strukturlar həm yerli icmalarla əməkdaşlıq, həm də Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətlidir. Gənclərin təşəbbüskarlığı diaspor təşkilatlarının fəaliyyətini formal çərçivədən çıxarıb real nəticələrə yönəldir. Amma bütün bunlarla yanaşı, diaspor quruculuğunda gənclərin fəallığının artırılması üçün institusional dəstək də vacibdir. Dövlət qurumları, ictimai təşkilatlar və təhsil müəssisələri tərəfindən həyata keçirilən proqramlar gənclərin potensialının üzə çıxarılmasına şərait yaradır. Təlimlər, forumlar, beynəlxalq layihələr və mübadilə proqramları gənclərin diaspor fəaliyyətinə daha peşəkar yanaşmasına kömək edir. Bu cür dəstək gənclərin fərdi təşəbbüslərini sistemli və davamlı fəaliyyətə çevirir. Xaricdə yaşayan hər bir gənc soydaşımızın diaspor sahəsindəki aktiv fəaliyyəti həmişə dövlətin diqqət mərkəzindədir və yüksək qiymətləndirilir. Diasporla İş üzrə Dövlət Komitəsinin həyata keçirdiyi genişmiqyaslı layihələrdə fəal iştirak edən bir çox gəncimiz "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub. Bu təltiflər onların təşəbbüskarlığını yüksək qiymətləndirməklə yanaşı, gənclərə göstərilən diqqət və qayğının ardıcıl dövlət siyasətinin əsas tərkib hissəsi olduğunu açıq şəkildə nümayiş etdirir.

Xüsusilə qeyd edilməlidir ki, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə hər il 2 Fevral - Gənclər Günü münasibətilə dünyanın müxtəlif ölkələrində keçirilən tədbirlər gənclərin maraqlarının mərkəzləşməsinə və ahəngdar inkişafına, beynəlxalq əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə xidmət edir. Nəticə etibarilə, Azərbaycanın diaspor quruculuğunda gənclər strateji əhəmiyyətə malik bir qüvvədir. Onların bilikləri, bacarıqları və müasir dünyagörüşü diaspor fəaliyyətinin effektivliyini artırır və ölkənin beynəlxalq arenada mövqeyinin möhkəmlənməsinə xidmət edir. Digər tərəfdən, gənclərin diaspor quruculuğunda fəal iştirakı yalnız bugünkü maraqların deyil, eyni zamanda gələcək nəsillərin milli kimliyinin və dövlətçilik şüurunun qorunmasının təminatıdır. Bu baxımdan, gənclərə investisiya diasporun güclənməsinə və Azərbaycanın dünyadakı səsinin daha gur eşidilməsinə aparan ən doğru yollardan biridir.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunur.***